# İgidlik və şücaət



Sentyabrın 13-də Vətən müharibəsi şəhidi Bəxtiyarov Orxan Sərvər oğlunun doğum günü Daşkəsən rayon Şəhidlər xiyabanında şəhidin məzarı yanında qeyd olunub.

Anım gününde Daşkesen Rayon İcra Hakimiyyetinin başçısı Əhed Abıyev, SHXÇDX-nin rayon bölmesinin reisi Mirqasım Abbasov, DTX-nın rayon şöbesinin reisi Natiq Musayev, rayon Polis Şöbesinin reisi Seymur Əfendiyev, şehidin aile üzvleri, rayonun şehid anaları ve ictimaiyyet nümayendeleri iştirak edibler. İlk önce, şehidin mezarına gül desteleri düzülüb, torpaqlarımızın azadlığı uğrunda şehid olanların xatiresi bir deqiqelik sükutla yad edilib. Rayon icra hakimiyyetinin başçısı Əhed Abıyev bildirib ki, ötən il sentyabrın 27-den noyabrın 10-dek davam eden 44 günlük Veten müharibesinde möhterem Prezident, Müzeffer Ali Baş Komandan cenab İlham Əliyevin rehberliyi ile yenilmez Ordumuz torpaqlarımızı ermeni işğalından azad etdi, qalib Azerbaycan xalqı öz vetenperverliyini, ezmini bütün dünyaya aydınlığı ile gösterdi. Eyni zamanda möhterem Prezident, Müzeffer Ali Baş Komandan cenab İlham Əliyevin rehberliyi ile heyata keçirilen siyasetin esas istiqametlerinden biri de müharibe veteranlarının, elillerinin, şehid ailelerinin sosial müdafiesinin gücləndirilmesi, problemlerinin vaxtında helline nail olunmasıdır.

Daşkesende de şehid aileleri ve qazilere diqqet ve qayğı gösterilmesi yüksek seviyyede teşkil olunur ve bu enene davamlıdır. Daşkesende 30 yaşını qeyd etdiyimiz Orxan Bextiyarov 1991-ci il sentyabrın 13-de Daşkesen şeherinde anadan olub. Onun iki azyaşlı övladı yadigar qalıb. Azerbaycan Ordusunun esgeri Orxan Bextiyarov Azerbaycanın erazi bütövlüyünün berpa olunması üçün başlanan Veten müharibesi zamanı Şuşanın azadlığı uğrunda geden döyüşlerde iştirak edib. Noyabrın 7-de Şuşa döyüşleri zamanı qehremancasına şehid olub. Şehidimiz Orxan Bextiyarov gösterdiyi igidliye ve vezife borcunu şerefle yerine yetirdiyine göre ölke Prezidenti İlham Əliyevin serencamları ile "Veten uğrunda", "Cesur döyüşçü", "Şuşanın azad olunmasına göre" medalları ile teltif olunub.

Sonra şehidin tehsil aldığı Daşkesen şeher 1 saylı İ.Nesimi adına tam orta mektebin şagirdleri şehidlere hesr edilmiş vetenperver şeirler oxuyublar.

Şehidin anası Bextiyarova Gülbes Hesenqulu qızı şehid ailelerine gösterilen diqqet ve qayğıya göre ölke başçısı İlham Əliyeve ve Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnetdarlığını bildirib.

Şehid Orxan Bextiyarovun eziz xatiresi qelbimizde ebedi yaşayacaqdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**